# MƏHƏMMƏD FİZULİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİ

<"xml encoding="UTF-8?>

MƏHƏMMƏD FİZULİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİ

Allahın adı ilə

Beş yüz ildir...

Beş yüz ildir ki, alovunu bəşəriyyətə paylaya-paylaya yanırsan... Ayağın Kərbəlada topağına dirənib, alovun bütün yer kürəsinə yayılıb, eşqin ərşə şərik, istisinə milyom-milyon qəlb möhtacdır. "Məndə Məcnunam füzun aşiqlik istedadı var",-deyib Məcnunu sadəcə "ad"səviyyəsinə endirən eşqinin sədaları altında neçə-neçə məcnunlar gəlib-gedib, aşiq babam!

Beş yüz ildir ki, İlahi eşqilə külüng çalıb parçaladığın dağlardan tökülən şəlalələrdən yaranmış dəryalardan incilər toplayırıq. Bəlkə də heç mində birini ələ gətirməmişik... Gözəlliyinin nəhayəti bilinməyən misilsiz söz gülşəninin ətrini tam duymamışıq, təravətli güllərdən bəs deyincə dərməmişik. Bu dünyanın havasına hopmuş şerinin ecazkar musiqisini hələ qədərincə dərk etməmişik. Təbiətin nəşqlərində sirli rəngarənglik verən əvəzsiz söz sənətinin sehrindən qurtara bilmirik, şair babam!

Beş yüz ildir ki, "elmsiz şer əsası yox divar olur, əsassız divar ğayətdə bietibar olur",-deyib şerdə yaratdığın elmilik, kamillik yolunun kənarlarında addımlayırıq, hələ də o yola keçməyə ürək eləmirik. Qoyub getdiyim elm xəzinəsinin cəvahirətlərinə ancaq uzaqdan tamaşa edirik, əl atıb götürməyə cəsarətimiz çatmır, alim babam!

Təkcə onu bilirik ki, Aşiq Fizuli var, şair Fizuli var, Alim Fizuli var!

Məhəmməd Fizulini alim, filosof şair adlandıranlar səhv etmirlər. Çünki onun boşuna deyilmiş bir beytini belə anmaq çətindir. Hər beytinədə mütləq batini məna sezilir. Hətta Fizuli şerini aça bilməyən, onun söz içində dediyi sözlərin mənasını anlamağa çətinlik çəkən oxucular da "burada nəsə bir məna var"deyə deşünürlər.Doğrudan da Fizulinin istər nəsr əsərlərində,istərsə də şerlərində dərin məzmunlu elmi-fəlsəfi fikirlərlə rastlaşırıq. Onları açmaq istədikdə isə fikirlər çözələnir,Fikirdən fikir, sözdən yeni söz yaranır, bəzən insan özü də haçalanan fikirlərin, müəmmaların içində itib-batır. Budur Fizuli sözü, hamını mat qoyan Fizuli sehri...

Nədənsə Fizuli fəlsəfəsindən danışdıqda ilk növbədə şairin "başlanğıcın və sonun idrakı barədə baxışın mənbəyi"("Mətləul-etiqad fi mərifət əl-məbdə vəl-məad") adlı əsərini qeyd edirlər. Lakin zənnimcə, Fizuli ən gözəl fikirlərinin batini mənada, çoxlarına sadəcə lirik-aşiqanə şer təsiri bağışlayan qəzəllərində vermişdir. Doğrudur şairin "mətləul-etiqad" əsərində bir çox fəlsəfi görüşlərlə, müxtəlif flosofların fəlsəfi fikirləri ilə tanış oluruq. Şair burada şəm qərb,həmdə şərq fəlsəfəsinin görkəmli nümayəndələrinin eynilik yaradan və təzad təşkil edən fikirlərini qeyd edərək, insanı bir növ dünya fəlsəfi tarixinə səyahətə aparır. Lakin şairin əsas məqsədi budurmu?

Əksər tədqiqatçılar bu əsəri təhlil edərkən,şairin yazdıqlarını qısa şəkildə sadalamaqla kifayətlənirlər. Əsərin girişində "beləliklə, (müxtəlif) əqidə sahiblərinin təriqətləri ilə tanış oldum və onların faydasını mənimsədim. Zaman tələb edirki, bunların mövcudiyyatı qorunub saxlansın və əsrarı gizli qalmasın. Buna görə onları mühafizə etmək üçün dörd rüknü (sütunu ) olan bir ev tikdim: belə ki, onun hər bir təlimində iman bağına açılan bablar (qapılar) vardır. Belə bir binanı "Mətləul-etiqad" adlandırdım",-deyən şair burada sadəcə olaraq filosofların fikrini verməmiş, onları müqayisəli şəkildə təhlil edərək öz münasibətini bildirmiş və düzgün olan fikirləri Quran ayələri, Məhəmməd Peyğəmbər (s) və Əhli –beyt hədisləri ilə uyğunlaşdırıb doğru olanları qəbul etmişdir. Çünki Fizuli dünya

fəlsəfəsini sadəcə olaraq filosofların fikirlərin öyrənib yazmaq üçün oxumamışdı. Şair müqəddimədə qeyd edir ki, "varlıqlara idrak və hissiyat gözü ilə baxıb hər bir varlığın nəsə bir işlə məşğul olduğunu müşahidə etmiş, ömrünü qəflətdə korlamaqdan saqınmış, işlərdən birini seçmişdir ki, onunla işləri və bacarığı müqabilində bilik kəsb etsin". Onu bu işə sövq edən isə özünün dediyi kimi: "Biz Məhəmmədə şer öyrətmədik"-ayəsi olmuşdur.Şair sözləri nəzmə çəkmək işini götürmüş, bu yolda kainatın nizamının hikmətini, yəni onu mütləq bir nizamlayıcısının olduğunu dərk etmiş və onu tanımağın yolunu axtarnmaq üçün bütün əqidə sahiblərinin təriqətləri ilə tanış olmuşdur.Əsəri oxuduqca bəzən qırılan bir xətt diqqətimizi cəlb edir.Şairin Quran ayələrinə, Peyğəmbər (s)-ın hədislərinə istinad xətti...Əsər boyu şairin heç bir fəlsəfi cərəyana qoşulmadığının, sona qədər İslam fəlsəfəsinə (əgər belə adlandırmaq düzgündürsə) sadiq olduğunu müşahidə edirik. Məsələn birinci püknün birinci babında şair elm biliyi və bilik elmi haqqında flosofların fikirlərini verir, sonda isə yazır: "(bəziləri) demişlər ki, Tanrının sevdiyi birinci şey bilikdir. Və o (Tanrı), demişdir: "Mən gizli bir xəzinə idim və istərdim ki, məni tanısınlar, bilsinlər: buna görə məxluqatı yaratdım".

İkinci rüknün birinci babında aləmin mənşəyi haqqqında fikirləri qeyd edən şair sofistlərin, dualistlərin filosoflardan Fales, Əflatun, Empedokl, Pifaqor, Sokrat, Demokrit, Ərəstun və Heraklitin fikirlərini müqayisəli şəkildə vermiş, lakin yenə də öz ənənəsinə sadiq qalaraq, Quran ayələrinə və Peyğəmbər (s) sözünə uyğun olanları təsdiqdə götürmüşdür. Falesin "ilk ünsur sudan ibarətdir, suyun hər bir şəklə düşmək qabiliyyəti olduğu üçün onun sıxlaşıb bərkiməsindən yer, durulmasından (incəlməsindən) od və hava əmələ gəlmişdir. "göy isə odun tüstüsündən törənmişdir", sözünü: "onun ərşi su üzərində idi", ayəsinə, Ərəstunun "vahid yaradıcıdan ilkin fəal ağıl nəşət etmişdir. Ağıl öz mahiyyəti etibarilə mümkün, lakin öz səbəbiyyəti etibarilə vacibdir. Ağıl öz mahiyətini və səbəbiyyətini xatırlamış və bu xatırlamadan şeylər nəşət etmişdir" , sözünü Peyğəmbər (s)-ın "Tanrının ilk yaratdığı şey ağıldır" sözünə uyğun olaraq təsdiqləmişdir. Babın

sonunda isə Heraklitin sözlərini Quranda dönə-dönə təkrarlanan qiyamət gününün olacağına inamla bağlayıb qəbul edir.

Üçüncü rükn Tanrının varlığına aid biliklərin müqayisəli təhlilinə aiddir. Burada şair təkcə filosofların deyil, təbii olaraq burada şərq fəlsəfəsinin nümayəndələrindən daha çox bir çox müsəlman təriqətlərini də şərh edir, bir çox stat gətirilir. Tanrının varlığının isbatından bəhs edən üçüncü babda Fizuli yenə də öz sözündə qalır və yazır: "Vacibin isbatına aid olan islahatların yekunu belədir. Lakin hər kim bu məsələnin daha artıq izahı ilə maraqlanırsa, Onun (Məhəmməd Peyğəmbərin (s):"hər kim özünü tanıyırsa, Tanrısını da tanıyır", sözünü əsas götürməlidir".

Dördüncü babda şair "bəziləri demişlər" altında verdiyi fikirlər içərisində "iki" nöqteyi nəzər əsasında Tanrının zatına aid biliyə ağıl vasitəsilə yol tapmaq olmaz"fikrini Peyğəmbərin (s)"biz səni (Tanrını) lazımınca tanıya bilmədik"sözünə uyğun olduğu üçün qəbul edir.

Dördüncü rükndə şair Məhəmməd peyğəmbərin (s) peyğəmbərliyi isməti, başqa peyğəmbərlərdən üstünlüyü insanların ona olan ehtiyacı haqqında, həm də imamət ,məhşər,axirət dünyasındaki sorğu-sual barədə fikirləri qeyd edir.. Ağıllı iddaları qəbul edib, lazımsızları isə özünün ağıllı fikirləri, Qurandan, hədislərdən götürdüyü statlarla təkzib edir. Burada biz şairin çox ustalıq və bacarıqla bir qrupun fikrini digər bir qrupun fikri ilə rədd etdiyinin şahidi oluruq.

Dördüncü rüknün yeddinci babında daha bir mübahisəli məsələ gözlənir ki, bu da ruhun varlığı, onun ölümündən sonra qiyamətə kimi var olması, ləzzətləri və ələmi ilə bağlıdır. Şair bu məsələni ağıl vasitəsilə araşdıraraq qeyd edir ki, ruh müdrik varlıqdır, o bədəndə ləzzət və ələmi dərketmə qabiliyyətini itirmir. Şair ruhun bədəndən əvvəl və sonra mövcudluğunu, hissetmə və dərketmə qabiliyyətinə malik olduğunu qəbul edir

Ruhun bədəndən əvvəlki və sonrakı varlığının mümkünlüyünü Fizuli özünün "Səhhət və mərəz"əsərində də aydın göstərir. Allaha hədsiz həmd və sənadan

sonra şair ibadətdən sonra belə bir əhvalat söyləyir:

Zatı-təmiz, fəzilətli ruh Cəbərut aləmində doğulmuş, lahut fəzasında məkan tutmuşdu: Bir gün başına bir hava düşür və Nasut aləminə qədəm qoyur. Bədən adlı məmləkətlə qarşılaşır. Dörd qardaşın əlbir işi ilə fəaliyyət göstərən yeddi ölkədən ibarət yeddi əndamlı mülkdə dörd arxın təbiətinə malik olan Mizac adlı qızla qarşılaşır. Bədən mülkü ruhun xoşuna gəldiyindən Mizacla evlənir və onların Səhhət adlı övladları olur. Bədən diyarında gəzən ruh ürək şəhərini xoşlayıb orada məclis təşkil edir və əsl nəcabətlilərin özlərini öyməsindən pərişan olub, onları məzəmmət etməyə başlayır. Bundan inciyən tayfa sakitcə kənara çəkilib ruha itaət etməkdən boyun qaçırır. Onlar ruha pislik etmək üçün tədbir görürlər. Nəhayət, onlar istəklərinə nail olurlar və əsərdə Mərəzlə Səhhətin Mübarizəsinin şahidi oluruq. Bir çox xəstəliklərdən sonra Mizacın xətrinə Əxlat mərəzdən dönüb Səhhətlə yoldaş olur və mərəz bədən mülkünü tərk rdir.

Bir müddətdən sonra ruhun kəmala yetişdiyinin şahidi oluruq. Artıq ruh əvvəlki dostları ilə həmsöhbət ola bilmir və özünə yeni dost axtarır. Və bu zaman fərəh dostu hüsnə ruh haqqında danışır və hüsn onu görmək sevdasına düşür. Fərəh ruhun yanında əqlin olduğunu və bu sevdanın baş tutmayacağını söyləyir. Lakin hüsn bildiyi əfsunla ruhu ələ ala biləcəyini qətiyyətlə söyləyir və fərəh hüsnü ruhun yanına aparır. Bədən ölkəsi hüsnün xoşuna gəlir, əfsun ilə ruhu ələ alır. Ruhun hüsnə vurulduğunu bilən eşq özünü bədən diyarına yetirir. Eşq ruhu tərif edir, ruh onun söhbətini bəyənib özünə yaxın bilir və ondan hüsnü soruşaraq onu tanımağına kömək etməsini xahiş edir. Eşq anlayır ki, ruh qafıldir. Səfa güzgüsünü onun əlinə verir. Ruh güzgüdə öz əksini görüb heyrətdə qalır. Bir müüddət xəyal ilə yaşayan ruh nəhayət vüsal təmənnasına qərq olur və eşqdən çarə istəyir. Eşq ona bu yolun çətinliyini söyləyir, lakin onun təkidi ilə ruhu əvvəlcə Məşuqluq səhrasına, sonra isə Aşiqlik ölkəsinə aparır. Yolda onlar çox gözəl yerlər görür, cənnətməkan yerlərdən keçib, nəhayət tutqun, zülmət bir yerə çatırlar. Sonra Məşuqluq diyarından keçərək Aşiqlik ölkəsini dolaşırlar. Nəhayət gəlib bir ölkəyə çatırlar.

Ruh görür ki, bu həmin bədən ölkəsidir. Ruh baxdıqca hər yerin xaraba qaldığını, Səhhətə xələl yetirildiyini görür. Ruh bunların səbəbini eşqdə görərək: niyə mənim xanımanımı dağıtdın?, deyə ona acıqlanır? Eşq isə cavabında: bütün bəlalar sənin özündədir, deyir. Sonra o zaman xəyalın çəkdiyi surətə baxmasını təkid edir. Ruh həmin Səfa aynasına baxdıqda orada zəif, arıq bir vücud görüb, onu qəbul etmir. Bu zaman eşq deyir ki, ey ruh, bu lövhə Səfa aynasıdır, orada gördüyün birinci surət də sən idin indiki surətdə sən özünsən. O vaxt sən özünə baxanda qafil idin,indi isə kamilləşmisən həm aşiqliyə məhzər sənsən, həm də məşuqluğa zinət sənsən! Mərifət, aşinalığın sürməsidir və bu mənzilə yaxınlaşmaq üçün əlaqələrdən ayrılmaq lazımdır!. Sonra gözlərinə aşınalıq sürməsi çəkən ruh aynasızda özünə baxıb hər şeydən ehtiyatsız bir gözəl görür. Bu məqama çatan ruh yenidən "cəbərut" və "lahut" aləmlərini görür.

Əsər boyu biz ruhun bədən diyarında qarşılaşdığı əzab-əziyyətin şahidi oluruq. Ruh bilərəkdən qarşıdakı çəyikliklərin olacağını eşitdikdən sonra belə irəliləyir.Onu bu cəhətlərə sövq edən eşqdir. Şair burada göstərir ki, ruhun kamilliyə çatması üçün mütləq onun bədən mülkünə səyahəti lazımdır. Bədəndən kənarda ruhun hissetmə və dərketmə qabiliyyəti olsa da, bədənsiz o kamilliyə yetişə bilmir. Biz bunun doğruluğunu Quranda buyurulan Allah sözündə də görürük: "cinləri və insanları ona görə yaratdım ki, mənə ibadət etsinlər". Hədisi qüdsidə buyurur: "Mən bir gizli xəzinə idim, istədim tanınam: insanları yaratdım ki, tanınam". Deməli, Allah Taalanın dərk olunması üçün insanın yaranması, yəni ruhun bədən diyarına daxil olması, gərək idi. Əgər ruh bədəndən kənarda da öz hissetmə və dərketmə qabiləyyətini göstərə bilsəydi, yəqin ki, onun bədən mülkünə düşməsinə, yəni insanın yaranmasına ehtiyac olmazdı.

Fizuli bu əsərdə ruhun bədən mülkünə girdiyi andan oranı tərk etdiyi ana kimi keçdiyi sınaqları qeyd edir və onun məhz bədən mülkündə kamilləşdiyini göstərir. Əlbəttə, ruhun keçdiyi sınaqlar yəqinki Fizulinin bildiyi miqdarda deyildir. Çüki, insan beyni ruh haqqında çox kiçik bir şeyi dərk etmək, hiss etmək qabiliyyətinə

malikdir. Həqiqətən isə yalnız Allah bilir! Əsərdən göründüyü kimi ruhu kamilləşdirən eşqdir. Eşq, aşiq, mey, saqi və s. Bu kimi məfhumlar klassik şerdə tez-tez müraciət olunan obyektlərdir. Fizulinin qəzəllərində də tez-tez aşiq-məşuq münasibətinə təsadüf edilir. Əlbəttə klassik şerdəki eşq də bizim adi həyatda qarşılaşdığımız məhəbbət macərası deyildir. Burada Allaha olan İlahi eşqdən bəhs edilir. Aşiq öz sevgilisinə nail olmaq üçün, yəni yaradanına qovuşmaq üçün vüsal həsrəti ilə müəyyən mərhələlərdən keçir. Biz bunu "səhhət və mərəz" əsərində müşahidə edirik. Bu yolda dörd mərhələ ayırd edilir: Şəriət, təriqət, mərifət və həqiqət. "səhhət və mərəz" də ruhun məşuqluq diyarını və aşiqlik ölkəsini dolaşdıqdan sonra mərifətə çatması, gözlərinə aşinalıq sürməsi çəkib həqiqəti dərk etməsinin şahidi oluruq. Qeyd edilən dörd mərhələ sufi təriqətində də olduğu üçün çox vaxt Fizulini sufi şair hesab edirlər. Və yaxud da onun əsərlərində təsəvvüflə bağlı bir çox fikirləri varlığın sübut etməyə çalışırlar. Hətta bu barədə elmi əsərlərdə yazılır. Lakin zənnimcə Allahın dərk edilməsi yolları islam dinində də eynilə bu kimidir. Lakin müsəlman təriqətləri sufilərdən fərqli olaraq, mücərrədliyi deyil, Qurani kərimdə göstərilən istiqamətlə kamilləşib Allahı dərk etməyi düzgün yol hesab edirlər. Yəqin ki,özünü istər yaşadığı dövrdə, istərsə də əsərlərində əsl şiə kimi tanıdan Fizuli də belə düşünmüşdür. Əgər bu cür düşünmüşdürsə, deməli, heç zaman öz yaradıcılığında sufiliyə meyl edə bilməz. Klassik şerdə işlənən mey, aşiq, məşuq kimi sözlər isə klassik şer nümunəsi yaratmaq üçün bir növ vasitələrdir. Hal-hazırda da tarix boyu olduğu kimi şairlər əsərlərində həmin şairlər arasında təsəvvüf anlayan və anlamayan, onu qiymətləndirən və ya onu rədd edənlər vardır. Amma klassik üslubda yazan şairlərin hamısı təsəvvüflə bağlı olan fikirləri şerə gətirir. Bu səbəbdən Fizulini sufi kimi qələmə vermək doğru deyil.

"Səhhət və mərəz" də ruhun bədən mülkünü dolaşdıqdan sonra yenidən öz əvvəlki məkanına qayıtdığının şahidi oluruq. Hər bir varlığın yenidən öz əslinə qayıtması ideyasına şairin digər əsərlərində də rast gəlirik. Məsələn:

Gəhi torpağə eylər hikmətin min Məhliqa pünhan.

Gəhi sünün qılır torpağdən min Məhliqa peyda.

(Gah hikmətin min ayüzlünü torpaqda gizlədir, gah da əməlin torpaqdan min ayüzlü yaradır).

Xəlq etmə, dünyaya insan gətirmə Allah Talanın ən böyük yaradıcılıq qüdrətidir ki, bu barədə müqəddəm kitablarda çox məlumatlar verilir. Allah Taala insanı bu dünyaya göndərir, sınaq müddəti bitdikdən sonra onu axirətə aparır. Allahın özünəməxsus bu hikməti qarşısında hər bir şey acizdir. Allah özü bilir, gah torpaqdan insan yaradıb yer üzündə qərar verir, gah da yaratdığını fənaya uğradıb bu dünyadan aparır. Fizuli burada Allahın yaradıcılıq qüdrətini, həm də insanın anlamağa qabil olmadığı hikmətini tərif edir. Göstərir ki, insan da yaranmışdır və bütün yaranmışlar kimi o da bir müddətdən sonra əslinə qayıtmalıdır.

İnsanın bədəni torpaqdan yaranıb torpağa da qayıdır. Bədən yaşadıqca ruh da onunla olur. Bədən ölüb torpağa tapşırılanda, ruh da öz əvvəlki məkanəna qayıdır, yəni göylərə çəkilir. Bədəndəki həyat ruh üçün sınaqdır. Ruh orada bir növ həbs olunur. Nə qədər ki, qafildir bədən mülkü ona xoş gəlir, elə ki, kamilləşir,bədən mülkü onun üçün zindan misalında olur. Şairin aşağıdaki beytinə onun kamilləşdiyini və bu həbsdən xilas olma arzusunu eşidirik:

Həbsi-həvadə qoyma Füzulisifət əsir,

Yarəb, hidayət eylə təriqi-fəna mana.

(İlahi, məni nəfsin həvavü həvəsin zindanında Fizuli sifətində əsir saxlama, mənə yox olmaq yolunu göstər).

Fənalıq kamilliyin ən yüksək zirvəsi sayılır. Bu zirvədə artıq kamilliyə çatmış aşiq vəslə yetişir. Artıq ruh bədən mülkündən azad olub azadlığa çıxır.

Canü tən olduqca məndən dərdü dağ əskik degil,

Çıxsa can, xan olsa tən, nə can gərək, nə tən mana.

(Can və bədən olduqca, məndən dərd və dağ əskik deyil, canım bədənimdən çıxsa, bədənim torpaq olsa, sonra mənə nə can gərəkdir, nə də bədən).

Göründüyü kimi bu beytdə də şair bədəni nəfs, həvavü həvəs zindanı hesab edir. Ona düşmən olan və onu əzab-əziyyətə sövq edən nəfsin həvanın əlindən qurtulmaq istəyir. Deyir ki, bədənim, bədənimdə canım var, mənə rahatlıq yoxdur. Canım bədənimdən çıxsa, bədənim də torpağa qarışsa, torpaq olsa, daha mənə onların heç biri lazım deyildir.

Kamilliyə çatan şair dərk edir ki, bu dünya müvəqqətidir. İnsan mütləq öz əbədi məkanına qayıtmalıdır. Əbədiyyətə qovuşmaq üçün isə canı qurban vermək gərəkdir:

Qəd ənarəl-eşqə-lil-üşşaqi minhacəl hüda!

Saliki-rahi-həqiqət eşqə eylər iqtida.

(Eşq aşiqlər üçün düzgün hidayət yolunu işıqlandırdı, həqiqət yolunun yolçuları eşqi müqtəda bilib onun ardınca gedər).

Həqiqət kamilliyin dördüncü mərtəbəsidir. Aşiqlər hər bir dünya nemətinə arxa çevirib, Eşqin bələdçiliyi ilə həqiqət yolunu tutub gedərlər. Eşq aşiqlərin yolunu işıqlandırıb onlara yol göstərir. Biz bunu "Səhhət və Mərəz" də də görmüşük. Ruh eşqin bələdçiliyi ilə Məşuqluq və aşiqlik ölkələrini dolaşır. Onun məsləhətlər ilə gözlərinə aşinalıq sürməsi çəkib gözəlləşir, bütün ehtiyaclardan qurtularaq, əbədiyyətə, yəni öz əslinə qovuşur.

Eşqdir ol nəşeyi-kami kim, ondadır müdam.

Meydə təsviri-hərarət, neydə təsiri-səda.

(O kamil nəşə eşqdir ki, daima meydə hərarətin coşqunluğunu və neydə sədanın təsirliyi ondadır).

Meyin əsli Meynə,neyin əsli qamışdır.

Meynə göyərir, tumurcuqlayır, yarpaqlayır, çiçəkləyir, üzüm yetişir. Əvvəlcə acı, sonra turş, nəhayət şirin olur. O meyvəyə çevrilənədək uzun bir inkişaf prasesi keçir. Mey qaldıqca daha da coşğunluğu artır. Onun coşqunluğu vüsal həsrətindəndir. Mey vüsala çatmaq üçün yəni əslinə qayıtmaq üçün qaynayır, əsib-coşur. Eşqinin kamilliyi hesab edir. Eləcə də, öz əslindən, yəni qamışdan ayrılan ney əslinə qayıtmaq üçün fəryad edir. Onun səsini belə yandırıb-yaxıcı olması eşqdəndir. Biz burada da küldən ayrılan zərrənin yenidən küllə qovuşmaq həsrətini görürük.

, Vadiyi-vəhdət həqiqətdə məqam-eşqdir,

Kim, müşəxxəs olmaz ol vadidə sultandan gəda.

(vəhdət vadisi həqiqətdə eşqin məqamıdır ki, o vadidə rəiyyət şahdan fərqləndirilməz).

Aşiqlər üçün bu dünya viranə,fənalıq isə abad mülkdür. Bu səbəbdən onlar bütün əzab-əziyyətlərə dözüb, dünya nemətlərinə arxa çevirir, fənalıq yolunu tuturlar və vəhdət vadisinə can atırlar. Ona görə də orada şah ilə gəda bir-birindən seçilmir. Aşiqlər bura çatana kimi dörd mərhələdən keçirlər. Birinci mərhələdə insan onu və dünyadaki bütün yaranmışları xəlq edən bir Xaliqin olduğunu bildirir. İkinci mərhələdə insan öz dediyini dərk etmiş olur. Üçüncü mərhələdə insan artıq

dünyada olanların hamısını rədd edir, bütün dünya nemətlərindən əl çəkir və öz yaradanı ilə təkbətək qalır. Dördüncü mərhələdə isə insan artıq özünü də unudur., təkcə yaradanı düşünür. Bu isə artıq əslinə qovuşmaq mərhələsidir. Belə insanlar kamil şəxslərdir. Və fəna-fillah adlanırlar.

Eyləməz xəlvətsərayi-sirri-vəhdət məhrəmi.

Aşiqi məşuqdən, məşuqi aşiqdən cüda

(Vəhdət sirrləri saxlanılan gizli bir evin məhrəmi olanlar heç vaxt aşiqi məşuqdan və məşuqu aşiqdən ayrılmaz).

Əslində qayıtmaq istəyən və kamillik yolunu tutub gedənlərin hamısı heç də bu yolu sonadək gedə bilmir. Yalnız kamilliyin bütün mərhələlərindən keçənlər vəhdət sirləri saxlanan qəsrə daxil ola bilirlər. Bu adamlar da Peyğəmbərlər, imamlar, övliyalardır. Fizuli burada demək istəyir ki, baxmayaraq insanlar eyni bir əcdada mənsubdurlar, heç də hamı eyni dərrakədə deyildir. Yalnız sirlər saxlanılan qəsrə məhrəm olanlar insanların istəyini anlayıb, onların hüququnu müdafiə edə bilərlər.

Aşiqlə məşuqu yalnız onlar bir-birindən ayırmazlar.Çünki, onlar bilirlər ki, hər zərrə öz külünə qovuşmalıdır.

Ey ki, əhli-eşqə söylərsən məlamət, tərkin et!

Söylə kim, mümkünmüdür təğyiri-təqdiri-Xuda?

(Ey eşq əhlini məzəmmətləyən, əl çək bu işdən!-deyən, de görüm ki, Allahın yazdığı yazını pozmaq mümkündürmü?!

Allah Taalanın iradəsi və təqdiri qarşısında heç bir istək və iradə ola bilməz. Bu mətləb Quranı kərimin "ənam" surəsinin 115-ci ayəsində öz əksini tapmışdır: (ya

rəsulum) Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək kimsə yoxdur., o, (hər şeyi) eşidəndir və biləndir".

Şair bu beytdə aşiqləri məzəmmət edənlərə müraciətlə deyir ki, əl çəkin bu məzəmmətdən. Allah Taala onlar üçün bu yolu seçib. Allahın yazdığını isə pozmaq qeyri mümkündür.

Eşq kilki çəkdi xət hərfi-vücudi-aşiqə,

Kim, ola sabit həq isbatında nəfyi-məada.

(Eşqin qələmi bir xətt çəkib aşiq sözünü vücuda gətirir ki, həq isbatında qeyriləri danmaqda sabit olsun).

Bu beyt Fizuli yaradıcılığında mübahisəli betylərdəndir. Hacı mail bu beytin şərhini belə verir: "Allah sözü əlif hərfi ilə başlandığından və əlif hərfi düz xətt kimi çəkildiyindən Allahın adının ilk hərfindən düzlüyün əsası, bünövrəsi qoyulur. Eşq qələmi ilə bir xətt çəkib aşiqi əmələ gətirir, yəni eşq sözü alınır. Burada əyn hərfi birləşir, onların vəhdəti kainatın yaradıcısını inkar edənlərə onun varlığını sübut edir. Allahın isbatı olan yerdə isə qeyrilərin danılması labüddür"

Ey Fizuli, intəhasız zövq buldun eşqdən,

Böylədir hər iş ki, həqq adilə qılsın ibtida.

(Ey Fizuli, həqq adıyla başlanan hər bir iş belədir ki, sən eşqdən intihasız zövq aldın).

Şair qəzəl boyu eşqin aşiqə yol göstərdiyini, aşiqin kamillik yolunu keçib vəhdət vadisinə yetişməsini, bu yolda çoxlu məzəmmətlərə, danlaq və sərzənişlərə məruz qaldığını, nəhayət böyük zövqə çatdığını qeyd edərək, sonuncu beytdə bu zövqü çəkdiyi əziyyətlərin müqabilində Allahın mükafatı olduğunu, Allah adıyla görülən

hər bir işin belə sonluqla nəticələnəcəyini göstərir.

Bununla da şair bir daha özünün İslam dininə, tohidə bağlılığını bildirir.

Ümumuyyətlə, Fizulinin bütün yaradıcılığı boyu onun heç bir fəlsəfi cərəyana qoşulmadığının, sona kimi İslamı yolla getdiyinin şahidi oluruq. Şair bununla bir daha sübut edir ki, ən böyük din İslam dinidir və ən dərin fəlsəfə, yəni bütün fəlsəfələri özündə birləşdirən fəlsəfə də İslam fəlsəfəsidir.